www.yeniazerbaycan.com
14 noyabr 2019-cu il, cümə axşamı / № 210 (5585)
YENİ AZƏRBAYCAN

# Azərbaycanın işğal olunmuş ərazilərində tarixi, dini-mədəni abidələrin dağıdılması erməni vandalizminin bariz nümunəsidir

## *İşğalçı Ermənistanın bu cür aşkar cinayət əməlləri beynəlxalq hüquq normalarına və müvafiq konvensiyaların tələblərinə ziddir*

Tarixi faktlar və reallıqlar göstərir ki, ermənilər ayrı-ayrı dövrlərdə azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyaların altına imza atıb, tarixi Azərbaycan torpaqlarına təcavüzkar iddialarını daha da gücləndiriblər. Onlar bu məqsədlə misli görünməmiş metod və vasitələrə baş vurublar. Mənfur qonşularımızın "böyük Ermənistan" yaratmaq ideyaları, eyni zamanda, böyük güclərin maraqları ilə üst-üstə düşüb. Bunun da nəticəsidir ki, müxtəlif dövrlərdə ermənilər xalqımıza qarşı fərqli-fərqli təhdidlərdən məharətlə istifadə etməyə çalışıblar ki, buraya da təbliğat, qondarma "soyqırımı" iddiaları, torpaq tələbləri, terror aktları, qətllər-qırğınlar və s. daxildir.

Bunlarla yanaşı, Ermənistan 1992-1993-cü illərdə Azərbaycan ərazilərini işğal etdikdən sonra qeyri-qanuni olaraq Azərbaycanın daşınmaz tarix və mədəniyyət abidələrinin memarlıq quruluşunda və interyerində dəyişikliklər edib, divar yazılarını korlayıb, abidələrin divarları üzərində olan çoxlu sayda daş yazıları, eləcə də alban dövrünə məxsus bədii üslubda işlənmiş ornament və simvolları tamamilə silib, onların bir çoxunun isə formalarını dəyişdirərək tanınmaz hala salıblar. Bu ərazilərdə ermənilər qanunsuz arxeoloji qazıntılar aparır, xaraba qalmış kəndlərdə kilsələr tikir, toponimləri dəyişdirir, Azərbaycanın maddi-mədəniyyət nümunələrini mənimsəməyə çalışırlar.

Göründüyü kimi, Ermənistanın Azərbaycan xalqına qarşı davam edən təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minilliklərlə ölçülən tarixi, dini və mədəni abidələrimizdir. İşğal edilmiş Azərbaycan ərazilərində erməni vandalları tərəfindən çoxsaylı məscid, muzey, maddi-mədəniyyət nümunəsi yerlə yeksan olunub, həmçinin maddi və mənəvi sərvətlərimiz olan bu abidələrin özününküləşdirilməsi cəhdləri edilib. Məlumata əsasən, bütövlükdə, işğal altında olan Azərbaycan ərazilərində dünya mədəniyyəti incilərindən olan 13 abidə, 1200 dövlət və 2500 yerli əhəmiyyətli abidə dağıdılıb, talan edilib. Bundan başqa, işğal olunmuş ərazilərdə 100 mindən çox eksponatın saxlandığı 26 muzey, 927 kitabxana, 4,6 milyon kitab, 808 klub, 4 teatr, 2 konsert salonu, 8 istirahət və mədəniyyət parkı, 4 incəsənət qalereyası, 85 musiqi məktəbi, minlərlə musiqi aləti və sair qiymətli mal-material dağıdılıb və ya mənimsənilib. Yeri gəlmişkən, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki çıxışında bu məsələyə toxunaraq deyib: **"Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur".**

Təcavüzkar ölkənin vandalizminə qarşı beynəlxalq təşkilatlar tərəfindən müvafiq qətnamə və qərarların olmasına baxmayaraq, buna məhəl qoyulmur. Ümumiyyətlə, ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Əlbəttə, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus maddi-mədəni irsi məhv etməsi yalnız ölkəmizə qarşı yönəlməyib, bu, ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik, cinayət əməlidir. Bütövlükdə isə, Azərbaycanın işğal olunmuş ərazilərində tarixi, dini-mədəni abidələrin dağıdılması erməni vandalizminin bariz nümunəsidir.

**Nurlan QƏLƏNDƏRLİ**